# Etimadı doğruldanda



**Zahir müəllim əvvəlki vəzifələrdə olduğu kimi MKS-də də ilk gündən işin çəmini tapmış, tabeliyindəki əməkdaşlara qayğı ilə yanaşmış, intizamı gücləndirmiş, abadlıq və bərpa işlərinə xüsusi önəm vermişdir. MKS-dəki səliqə-səhman indi göz oxşayır.**

Kitabların rəflərə lazımi qaydada düzülüşü, müvafiq əyani vəsaitlərin qabarıq şəkildə diqqətə çatdırılması buraya gələnlərin nəzərindən yayınmır.Rayonun kitab fondu 503010 nüsxəyə bərabərdir. Onlardan 419738 nüsxəsi Azərbaycan (o cümlədən 83629 nüsxəsi latın qrafikalı), 75046 nüsxəsi rus, 8226 nüsxəsi isə digər dillərdə olan ədəbiyyatlardır.

Kitabxanalara oxucu axınının gücləndirilməsi və nümunəvi xidmət işində Arzu Rəhimova (Hil kəndi), Tünzalə Kubərova (Bədirqala kəndi), Yelena Səfərəliyeva (Gündüzqala kəndi) və digər kitabxana müdirlərinin fəaliyyəti razılıq doğurur. Maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə müxtəlif tədbirlər görülmüşdür. Nəticədə 25 kənd kitabxanası yeni binaya köçürülmüşdür.

Söhbətimizi daha geniş formada MKS-in direktoru Z.Mustafayevlə davam etdiririk:

- Hesabat ilində MKS-də işin təşkili və fondun yeni ədəbiyyatlar üzrə komplektləşdirilməsi işində Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov adına Milli Kitabxana tərəfindən verilmiş göstərişlərin, tövsiyələrin əhəmiyyəti böyük olmuşdur.

Müvafiq iş planına uyğun olaraq vahid fonda daxil olmuş yeni ədəbiyyatın komplektləşdirilməsi, uçotu və təbliği ilə əlaqədar tədbirlər həyata keçirilmişdir. Vahid fondu əhatə edən çap əsərlərindən və digər informasiya daşıyıcılarından istifadə etməklə kitabxana tərəfindən biblioqrafiya və informasiya xidməti göstərilmişdir.

**Zahir müəllimi çoxdan tanıyıram. Həmişə haqqında xoş sözlər eşitmişəm. Harada olubsa, hansı vəzifədə çalışıbsa etimadı ləyaqətlə doğruldub, nüfuz qazanıb, sadələyi, səmimiyyəti və təvazökarlığı ilə fərqlənib. Mustafayev Zahir Cəbrayıl oğlu 1959-cu ilin ilk günündə - yanvarın 1-də Qusar rayonunun Çiləgir kəndində anadan olub. Perm şəhər musiqi texnikumunu və Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Qusar uşaq incəsənət məktəbində müəllim, direktor, ADPK Qusar şöbəsində müəllim, rayon mədəniyyət və turizm şöbəsinin müdiri vəzifələrində çalışıb. 2008-ci il dekabrın 15-dən Qusar Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktorudur.**









Əhaliyə kitabxana xidmətinin təşkili məqsədilə MKS-də kitabxana proseslərinin məzmun etibarı ilə müasir formalarında icrası ilə bağlı tədbirlər keçirilmişdir. Bu məqsədlə müntəzəm olaraq oxucu qrupları təhlil edilir, onların maraqları öyrənilərək müvafiq kütləvi iş aparılır.

Oxuculara xidmətin operativ təşkili üçün onların müxtəlif istiqamətlərdəki sorğularının yerinə yetirilməsi, fondların mühafizəsi işləri aparılmış, kütləvi tədbirlər keçirilmişdir.

Kitabxanalarda əsasən oxucularla kütləvi işin şifahi və əyani formalarından, o cümlədən kitab təqdimatları, oxucu konfransları, elmi-praktiki konfranslar, informasiya günləri, kitab sərgiləri, məruzələr, mühazirələr və digər tədbirlərdən istifadə edilmişdir.

MKS-də əhaliyə kitabxana xidmətinin təşkili üzrə tarixi hadisələr, yubileylər və digər əlamətdar hadisələrlə əlaqədar olaraq müxtəlif mövzularda kütləvi tədbirlər keçirilmişdir. "Uşaq ili" ilə əlaqədar MKS-də "Aydın səma", "Can nənə, bir nağıl de", "Hər uşağın ailəyə ehtiyacı var", "Uşaqlar sülh istəyir", "Mənim nağıllı dünyam" və s. mövzularda səhərcik, ədəbi-bədii gecə, şəkilli kitab sərgiləri, elmi-praktiki konfranslar keçirilmişdir.

Görkəmli Azərbaycan mütəfəkkiri, yazıçı C.Məmmədquluzadənin anadan olmasının 140, Mehdi Hüseynin 100, C.Cabbarlının 110, İ.Əfəndiyevin 95 illiyi, ədəbiyyatşünas- alim H.Araslının 100, şair M.Hadinin 130, rus yazıçısı N.V.Qoqolun 200, M.Y.Lermantovun 195 illiyi və s. görkəmli elm və incəsənət xadimlərinin yubileyləri münasibətilə mərkəzi rayon kitabxanasında və filiallarda müxtəlif mövzularda kitab sərgiləri, kitab təqdimatları, müzakirələr təşkil edilmişdir.

Hesabat ilində kitabxanalarda həmçinin Milli Qurtuluş günü, Beynəlxalq Bilik günü, Azərbaycan əlifbası və Azərbaycan dili günü, Narkomaniya ilə beynəlxalq mübarizə günü, Ahıllar günü, Müəllim günü, Azərbaycanın Dövlət müstəqilliyi günü, Azərbaycan Konstitusiyası, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Gənclər gününə həsr olunmuş tədbir, "Deyilən söz yadigardır" şeir müsabiqəsi, Qusar şəhər parkında "II uşaq kitab festivalı"na aid tədbir, "Uşaqlar bizim gələcəyimizdir" adlı yazılı müsabiqə, görüş və s. əlamətdar günlər keçirilmişdir.

Məlumat üçün bildirim ki, MKS-in xidmətindən mədəniyyət, təhsil və səhiyyə, icra hakimiyyəti orqanları, hərbi komissarlıq, "N" saylı hərbi hissələr, bələdiyyələr, özəl və sahibkarlıq fəaliyyəti ilə məşğul olan qurumlar, dövlət müəssisələri istifadə edirlər.




Qusar rayon mərkəzi kitabxanası metodiki mərkəz olaraq kitabxana işinin təşkilində kitabxana filiallarına və struktur bölmələrinə metodiki köməklik göstərir. Hesabat ilində mərkəzə 735 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

Qusar Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində 75 kütləvi kitabxana, o cümlədən, 1 gənclər, 1 uşaq, 1 mərkəzi,1 şəhər və 71 kənd kitabxanası fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyinin "Kitabxanaların kitab fondu-




nun məzmunca əhəmiyyətini itirmiş, fiziki cəhətdən köhnəlmiş və yararsız hala düşmüş kitab, qəzet, jurnal və digər çap məhsulların təmizlənməsi barədə" 1642/03 №-li, 24.06.2009-cu il tarixli məktubuna əsasən hesabat ilində MKS-in fondundan 59046 nüsxə ədəbiyyat silinmişdir ki, bunun da 38189 nüsxəsi fəaliyyətdə olan filialların, 20857 nüsxəsi isə bir neçə il bundan əvvəl ləğv olunmuş Çətkün, Qılah, Sudur palasa və Qənərçay kənd filiallarının fondundan silinmişdir. Silinmiş ədəbiyyat bağlamalara yığılaraq rayon mədəniyyət və turizm şöbəsinin yardımçı ota-



ğında saxlanılır. Respublika mədəniyyət işçilərinin hazırlıq və ixtisasartırma kursuna iki nəfər ezam edilmişdir. M.F.Axundov adına Milli Kitabxana və F.Köçərli adına uşaq kitabxanası tərəfindən rayon MKS-nə əlamətdar və tarixi günlər təqvimi və digər metodiki vəsaitlər daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" müvafiq sərəncamı ilə nəşr olunaraq kitabxana filiallarına hədiyyə edilmiş kitabların kitabxana fondlarına daxil edilməsi, uçotu, təbliği, kitabxana müəssisələrində əmək və icra intizamı vəziyyətinin öyrənilməsi, yaxşılaşdırılması məqsədi ilə Piral, Həsənqala, Köhnə Xudat, Qazmalar və Kuf oba kənd kitabxanalarının fəaliyyəti yoxlanılmış və müvafiq aktlar tərtib edilmişdir.

Hesabat ilində MKS-in fəaliyyəti ilə əlaqədar "Regional TV" və "Xəyal TV" də verilişlər hazırlanmış, rayonun "Qusar" və respublika qəzetlərində məqalələr çap edilmişdir.

MKS-in təşkilati-metodika şöbəsi tərəfindən çoxsaylı metodiki gediş edilmiş, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Rayon Mədəniy-



yət və Turizm Şöbəsinin göstərişləri ilə əlaqədar tapşırıqlar, yeni daxil olmuş ədəbiyyatın uçotu və təbliği, fondların elm sahələri üzrə təşkili barədə metodiki tövsiyələr, praktiki tapşırıqlar verilmişdir. Keçirilmiş seminar məşğələlərində kitabxana işinə dair 12 məruzə edilmişdir.

● **Tural**

